Vankulu Sosyal Araştırmalar Dergisi,
Sayı/Issue: 1 – Sayfa / Page: 69-86
ISSN: 2630-600X VAN/TURKEY

Makale Bilgisi / Article Info
Geliş/Received: 13.03.2018 Kabul/Accepted: 09.04.2018

# MÜBARIZ ÖREN'İN *BEYAZ BULUTLAR* ROMANINDA POST-YAPISAL FONKSİYON VE GÖLGE ARKETİPİ

# MÜBARIZ ÖRƏNIN *AĞ BULUDLAR* ROMANINDA POSTSTRUKTURAL FUNKSIYA VƏ KÖLGƏ ARXETIPI

# *POST-STRUCTURAL FUNCTION AND SHADING ARCHETYPE IN THE NOVEL WHITE CLOUDS BY MUBARIZ OREN*

**Ülvi BABAYEV**
Bakü Mühendislik Üniversitesi
e-mail: ubabayev@beu.edu.az

**Öz**

Bu makalede çağdaş Azerbaycan edebiyatının temsilcisi Mübariz Ören'in *Beyaz Bulutlar* romanında post-yapısal fonksiyon ve gölge arketipi inceleniyor. Post-yapısalcılık ve gölge arketipi kavramları hakkında bilgi verildikten sonra Roland Barthes, Jacques Derrida, Michel Foucault ve Jacques Lacan gibi post-yapısalcıların görüş ve tezlerinin *Beyaz Bulutlar* romanında nasıl ve hangi şekilde kullanıldığı gösteriliyor. Karl Gustav Jung'ın arketiplerle ilgili düşünceleri ve onun *Beyaz Bulutlar* eserindeki yansımaları makalenin konusunu açıklığa kavuşturuyor. Gölge arketipi özellikle romanın temel karakterleri baba ve oğulun yaşamındaki yansıması ve tekrarlanması dikkat çeker. Bu çalışmanın yeniliği post-yapısal nitelikler ve gölge arketipine yeni bakış açısı kazandırması ve bu kavramların yeni formatta araştırılmasıdır. Otto Weininger'in *Cinsiyet ve Karakter* ve Hermann Broch'un sistemli edebiyata dair tezlerinin modern romanda ampirik anlamı ele alınıyor. Romanın kahramanları baba ve oğul günah kompleksinden sıkıntı çekiyor. Antik yunan tiyatro yazarı Sofokles'in "Kral Edip" tragedyasında yansıyan inses olayı *Beyaz bulutlar* romanında modern hayata dönüşüm edilir. Roman Marcel Prust'un *Sodom ve Gomorra*, Max Frisch'in *Homo Faber* eserleri ile de metnlerarası ilişkiye giriyor. *Beyaz bulutlar* romanı dünya edebiyatının önemli yapıtları ile karşılaştırmalı olarak analiz ediliyor. Karşılaştırmalı analiz metodu makalede daha somut ve net sonuç elde etmeye hizmet ediyor. Sonuç olarak makale bilimsel ve edebi kanatlarla bitiyor.

**Anahtar Kelimeler:** Post-yapısalcılık, Henid, Gölge arketipi, Mübariz Ören, Beyaz Bulutlar.

**Xülasə**

Bu məqalədə müasir Azərbaycan ədəbiyyatının nümayəndəsi Mübariz Örənin "Ağ buludlar" romanında posstruktural funksiya və kölgə arxetipi" təhlil və tədqiq edilir. Əvvəla, poststrukturalizm və kölgə arxetipi anlayışı haqqında məlumat verilir. Daha sonra Rolan Bart, Jak Derrida, Mişel Fuko və Jak Lakan kimi poststrukturalistlərin nəzəri-praktiki görüş və tezislərinin "Ağ buludlar" romanında necə və nə şəkildə tətbiq edilməsi göstərilir. Karl Qustav Yunqun arxetiplərlə bağlı fikirləri və onun "Ağ buludlar" əsərində əks olunması məqalənin mövzusunu daha da aydınlaşdırır. Xüsusi ilə, kölgə arxetipinin romanın qəhrəmanları ata və oğulun həyatında öz əksini tapması və təkrarlanması diqqət cəlb edir. Məqalənin yeniliyi bundan ibarətdir ki, poststruktural keyfiyyətlər və kölgə arxetipi tamamilə yeni formatda araşdırılır. Otto Veynigerin "Cins və xarakter" və Heman Broxun sistematik ədəbiyyatla bağlı tezislərinin müasir bir romanda təcrübi mahiyyət daşıması sistemləşir. Romanın qəhrəmanları ata və oğul günah kompleksindən əziyyət çəkir. Antik yunan dramaturqu Sofoklun "Kral Edip" faciəsində əks olunan inses hadisəsi "Ağ buludlar" romanında müasir həyata transformasiya edilir. Roman Marsel Prustun "Sodom və Homorra", Maks Frişin "Homo Faber" əsərləri ilə də mətnlərarası əlaqəyə girir. "Ağ buludlar" romanı dünya ədəbiyyatının önəmli mətnləri ilə müqayisəli şəkildə təhlil edilir. Müqayisəli təhlil metodu məqalədə daha konkret və aydın nəticə əldə etməyə xidmət edir. Nəticədə məqalə elmi və bədii qənaətlərlə yekunlaşır.

**Açar Sözlər:** Poststrukturalizm, henid, kölgə arxetipi, Mübariz Örən, Ağ buludlar

**Abstract**

In this article, post-structural function and "shading archetype" in the novel "White clouds" by the representative of contemporary Azerbaijan literature - Mubariz Oren are investigated and analysed. Firstly, information is given about the notions of post-structuralism and "shading archetype". Afterwards, appliance way of the theoretical-practical approaches and theses of post-structuralists such as Roland Barthes, Jacques Derrida, Michel Foucault və Jak Lakan are applied in the novel "White clouds" is identified. Especially, representation and duplication of shading archetype in the life of heros of the novel - father and his son attracts attention. The novelty of the article is that post-structural characteristics and shading archetype is totally investigated in different context. The theses of Otto Weininger in "Gender and character" and Herman Brox related to systematic literature meaning an experimental nature in a contemporary novel is systematized. The characters in the novel, father and son suffer from sin complex. Incest occurrence reflected in the drama of antique Greek playwright Sophocles' "King Oedipus" is transformed into modern life in the novel "White clouds" . The novel makes an intertextual connection with "Sodom ve Gomorrah" by Marcel Prust and

"Homo Faber" by Max Frisch as well. The novel "White clouds" is comparatively analyzed with the important texts of world literature. Comparative analysis method serves as a pathway to get more comprehensive and clear result. The article ends with scientific and artistic opinions.

**Keywords:** Post-structuralism, henid, shading archetype, Mubariz Oren, White clouds

**Giriş**

Otto Veyninger "Cins və xarakter" kitabında "henid" adlı bir anlayışdan bəhs edir. "Henid"də qeyri-müəyyən biri olmaqdan başqa özünü dolğun ifadə edə bilməmək, sonradan tamamilə parçalanmış, bölünmüş halda olmaq müşahidə edilir və bu da qətidir ki, "henid"in bu hissələrə ayrılmış məzmununun özündə belə bütövlük yoxdur" [26, 125]. "Cins və xarakter" kitabında kişi və qadınların biseksuallığı barədə də fikir irəli sürülür. Veyningerə görə hər kişidə qadınlıq, hər qadında kişilik keyfiyyətləri var.

1971-ci ildə amerikalı sənət tarixçisi Linda Noxlinin "Niyə heç böyük qadın sənətkar yoxdur?" adlı məqaləsi yeni cığır açdı. Həm sosiologiya və psixologiya elmində, həm də sənət tarixində estetik inqilab baş verdi. Noxlinin yazısı Amerika, Almaniya, İngiltərə, Avstrya və Polşada incəsənətdə yeni kəşflərə səbəb oldu. Eleanor Antin, Linda Benqlis, Cudi Çikaqo, Rebeka Horn, Vali Eksport, Meri Kelli, Maqdalena Abakanoviç və onlarla başqa qadın sənətə gəldi. Bu qadınlar vizual sənətlərdə yeni bir imic yaratdılar. 1960-80-ci illərə qədər özünün "henid" halını yaşayan qadınlar sənətdə çoxsəsli atmosfer yaratdılar. Kerol Şnimen "Aybaşı gündəlikləri" naxışlarında, ardınca "Ət şənliyi" performansı, Monika Syonun "Doğum" tablosu, Cudi Çikaqonun "Axşam yeməyi" əsərində qadınların və qadınlığın xüsusi cəhətləri göstərilir. Çikaqo üçbucaqlı "Axşam yeməyi"ndə boya, taxta, keramika, parça və metaldan istifadə edib. İyirmi iki qadınla yaratdığı bu əsər qadınlığın sənət arxetipidir. Hər yöndən qadın cinsiyyətini simvollaşdırır. Qadının kişidən əksik olmadığı təsdiqlənir. Çünki bu qadınlar uğursuz arxetip olmaqdan imtina edirlər. Ona görə də uğur qazanırlar. [1].

Bəs "henid"in ədəbiyyatla əlaqəsi nədir? Bu əlaqəni yaradan şəxs Herman Broxdur. Yazıçı "Ədəbiyyat və fəlsəfə" kitabında sistemli estetikanın təsir dərəcəsini analiz edir[4, 9-41]. Hər şey dəqiq ölçülüb biçiləndə mətnin bütün kompoenetləri də yerli-yerində olur. XX əsrin böyük modernist yazıçısı Brox həm də ədəbiyyat strukturalistidir. Nəzəri fikirlərini "Yuxusuzlar", "Vergilinin ölümü" romanlarında və hekayələrində reallaşdırıb[5], [6].

Veyningerin "henid" qavramı ədəbiyyatda necə və nə şəkildə əks olunur? Yazıçının yaddaşında mövcud olan, amma hələ tam üzə

çıxmamış, beynindən tam çıxmaq ərəfəsində orada düşüb qalmış düşüncələr daha sonra yaratdığı xarakterlərin taleyində yavaş-yavaş üzə çıxır. Bu hal arxetipin yaranma prosesidir. Həyat təcrübəsi, sistemli yazıçı qələmi, üslub, dil və struktur estetikası mifik yaddaş yaradır. Bu qapalı yaddaş formasıdır. Mifik yaddaş hər kəsdə olsa da, dərin qatlarına söz sənətində rast gəlmək olur. Hər hansı bir adam mifik yaddaşı gündəlik bir ritual olaraq yaşaya bilir. Başına bir hadisə gəlir və onu nə vaxtsa yaşadığını düşünür. Yaxud bir əsər oxuyur, bir filmə baxır onları daha əvvəl baş vermiş bir hadisə kimi təsəvvür edir. Hətta, fərdlərlə yanaşı, millətlərin tarixində, folklor və miflərində bənzərlik mövcuddur. Mifoloji sistemdə fərqli ərazi və irqlər ortaq və oxşar ola bilirlər.

Yazıçı isə bütün insanlığın yaddaşına girə bilir. Fərqli dövrlərdə yaşanılan əhvalat və hadisələri müasir dövrə transformasiya edir. Gerçək mifik yaddaşı yaradır. "Henid"in bəşəri versiyasını formalaşdırır. Ruh və cismin patalogiyasını araşdırır. Sual və cavabın inamlı və şübhəli tərəflərini göstərir. Günah və aqibətin mahiyyəti təqdim edilir. "Henid"in cinsiyyət və xarakterlə əlaqəsi sistemləşir. Noxlinin yazısından sonra sənətdə inqilab edən qadınlar "henid"in yeni üzünü yaradırlar. Beyində ilişib qalan dəyərlərin sənətə çevrilməyinin mümkünlüyünü sübut edirlər. İnsesdən yaranan və təkrarlanan arxetip və arxefaktlar qadın sənətkarların pozitiv və yenilikçi performansının xaricində baş verir. Bu məqamı "henid" anlayışını özündə cəmləşdirən bədii mətnlər daha yaxşı ifadə edir. Çünki yaddaş və nəsillə bağlı olan arxetip yaratmaqda "henid"in və cinsiyyətin böyük rolu var. Jak Derrida, Rolan Bart və Jak Lakanın fikirlərinə görə poststrukturalizm dil və struktur hadisəsi omaqla yanaşı, yaddaş və təxtəlşüurla da bağlıdır. Deməli, poststruktural funksiya və arxetiplər arasında sistemli bir əlaqə mövcuddur. Kölgə arxetipi isə insanın mənəvi kəsirlərini ifadə edir. Bunun üçün Karl Qustav Yunqun arxetiplərlə bağlı fikirləri əsas meyardır. Ədəbi mətnlərin təhlilində də Yunq fəlsəfəsi tətbiq olunur. Azərbaycan ədəbiyyatında Veyningerin "henid" anlayışına və Yunqun arxetiplər haqqında görüşlərinə uyğun gələn mətn Mübariz Örənin "Ağ buludlar" romanıdır. Deməli, Veynigerin "Cins və xarakter" kitabı və qadın sənətkarların estetik inqilabına müraciət təsadüfi deyil. "Ağ buludlar" romanında postsruktural funksiya və kölgə arxetipi Veyninger, Yunq və poststrukturalistlərin nəzəri fikirləri praktiki olaraq tətbiq edilmişdir.

## 1. "Ağ buludlar" romanında poststruktural funksiya

Kişi və qadın, ağıl və duyğu, ehtiras və təbiətin üstünə "Ağ buludlar"ın ədəbi- estetik çətiri açılır. Mübariz sənət və sənətkarlıq

arasında harmoniya yarada bilir. "Ağ buludlar" romanı poststruktural funksiyaya malikdir. Romanda intertetkstuallıq və dekonstruksiya yeni tipli ədəbi mətn formalaşdırır. Dekonstruksiya təbii və orqanikdirsə, poststuktural ədəbiyyat yaranır. Jak Derridaya görə dekonstruksiya yeni, poststruktural ədəbiyyatın əsasını qoya bilir. Hansı mətn bədiidir? sualına cavab verir [7, 51]. Yeni tipli bədii və poetik mətn formalaşır. Mübariz Örən Sodom və Homorra qəbiləsinin başına gələn əhvalatı müasir həyata köçürür. Arxetiplər üzə çıxmağa başlayır. "Ağ buludlar" romanı Sofoklun "Kral Edip", Marsel Prustun "Sodom və Homorra", Mario Varqas Lyosanın "Ögey ananı oxşamaq", Maks Frişin "Homo Faber" romanları və onlarla tarixi, ədəbi, dini hadisə və mətnlərlə əlaqəyə girir. [23], [21], [16], [10] Tarix xüsusi rol oynayır. Dekonstruksiya keçmişi yenidən qurmaq və ona təzə bucaqdan baxmaq üçündür. Rolan Bart "Mişele" kitabında tarix və ölümün fəlsəfəsini tədqiq edir. Bu yolla həm də arxetiplərin yaranma və bir-birini təkrarlamasındakı həqiqət aydınlaşır. Jül Mişele XIX əsr fransız tarixçisidir. Bart alimin fikirləri əsasında keçmiş və indi arasında əlaqə yaradan tarixin mahiyyətini şərh edir. Mişele Paris universitetində tarix professoru olmaqla yanaşı, siyasətə qarışmadan yeni ziyalı nəsli yetişdirməyə səy göstərir. Universitetdə tələbələrin maariflənməsində xüsusi rol oynayır. "Tarixi həqiqətlər Mişele üçün yenidən qurulacaq bir dekonstruksiya deyil, qucaqlanacaq bir bədəndir. Tarixçi tanış bir istiliyi yenidən hiss etmək üçün lazımdır" [2, 28]. Mişele "Fransa tarixi" kiatbında və eləcə də universitet auditoriyalarında oxuduğu mühazirələrində keçmişi bu günün həqiqətini dərk etmək üçün öyrədir. "Ağ buludlar" romanı da adi, sadə bir dekonstruksiya, poststruktural bir funksiyadan ibarət texniki bir ədəbiyyat hadisəsi deyil. İnsanla bağlı qəliz, anlaşılmayan həqiqətləri kəşf edir. Sofokl "Kral Edip"də insan və tanrılar arasında məlumat və bilik mübarizəsini keçmişin izləri ilə təhlil edir. Mübariz Örən "Kral Edip" və ondan sonrakı tarixi günah və peşmanlıq, kişilik və qadınlıq aspektindən təqdim edir. Cinsin tələb etdiyi instinkt və duyğulardan xilas ola bilməməyin pataloji dərinliyinə enir. Həmin qatın ədəbi-estetik mahiyyətini təsvir edir. Əsərin əsas obrazları ata və oğul eyni aqibəti yaşayır. Ailəsini tərk edən kamaz sürücüsü ata Rusiyanın fərqli şəhər, qəsəbə və kəndlərinə səfərlər edir. Hətta, ordan da Qazaxıstana keçir. Ancaq bu məqamı Umberto Ekonun emprik, Lyosanın ilahi təhkiyəçi adlandırdığı şəxs xaricində heç kim bilmir [9, 39], [17]. Heç müəllifin özünün də bu gələcəkdən xəbəri yoxdur. O vaxta qədər ki, oğul da atanın aqibətini yaşayacaq. Bədii mətnin çoxsəsliyi və qeyri-adiliyi elə bu məqamdadır. Müəllifin heç nədən xəbəri yoxdur. Bütün səhnələri öz istəyi ilə yazmır. Bəs hadisələr kor-koranə, sitemsiz bir şəkildə cərəyan edir? Qətiyyən, belə deyil.

Yenə mifik yaddaş və arxetiplərin təbii bir sürpriz kimi ortaya çıxması mətnin strukturunu müəyyənləşdirir. Bədii mətnin tarixdən daha təsirli effektə malik olması sübut edilir. Rolan Bart "Mişele" kitabında tarixi tanış istiliyi xatırladan bir sahə kimi qeyd edir. Ancaq Bartın tezisinə əlavə ediləcək bir həqiqət var. Tarixdən də isti və canlı bir mexanizm ədəbi mətnlərdir. "Ağ buludlar" romanı belə bir struktur və estetik keyfiyyətləri ilə seçilir.

"Ağ buludlar"da poststruktural xüsusiyyət romanın dil və üslubunda dolğun əks olunur. Bu da poststrukturalizmin ən əsas cəhətidir. Çünki romanın dilində çoxqatlı semantik çalarlar və estetik ifadə metodları olmasa, günah arxetiplərini, Edip kompleksinin müasir həyata necə transformasiya olduğunu ifadə etmək çətinləşər. Müasir ədəbiyyat nəzəriyyəçisi, postsrukturalist Ketrin Belsey dilin poststruktural ədəbiyyatda nə qədər vacib olduğunu belə qeyd edir: "Poststrukturalizm dünyadakı vəziyyətimizi sorğu-sual edən ənənəvi məsələləri müzakirəyə çıxararaq fərqli bir yanaşma mövqeyi göstərir"[3, 13]. Mübariz Örənin günah arxetipinə yeni yanaşma tərzi onun yaratmış olduğu dil strukturu və poetik-üslubi imkanların estetikası miqyasında reallaşır. Yəni, mətndə Kral Edipdən indiki zamana kimi mövcud olan günah arxetiplərinin, inseslərin hamsını dərk edə bilməyimiz üçün yüksək ölçüdə ifadə gücü olmalıdır. "Ağ buludlar" romanında mövcud Azərbaycan dilindən istifadə hər hansı bir hekayə danışmağa hesablanmayıb. Sözlərin ahəng və harmoniya içində bir-birini əvəzlədiyi hadisələr obrazlı, poetik effekt üçün də deyil. Bu cür yanaşma tərzi daha çox XIX əsr romanlarına xasdır. XIX əsrdə yazılmış iki romanı nəzərdən keçirmək olar. Tolstoyun "Anna Karenina", Floberin "Madam Bovari" romanlarında dil yüksək epik vüsət və maksimal dərəcədə obrazlı ifadəliliyə yönəlir. Çünki hər iki romançı həyatı bədii mətnlərdəki kimi obrazlı və saf görmək istəyir. O dövrün yüksək texnologiyadan xəbərsiz cəmiyyəti bu cür təsvirə uyğundur. Halbuki, Anna Karenina və Emma Bovari günah arxetipindən xilas ola bilmir. Tolstoy peşmanlığın gözəl sonunu, Flober ekzistensial çıxılmazlıq sindromuna etirazını sənətin tematikasına daxil edir. [24], [12]. İstehlak cəmiyyətinin yazıçısı Mübariz Örən isə obrazlı dildən dekonstruksiya üçün istifadə edir. Axı dil göstərici br vasitədir. Misal üçün island dilində yazan Halldor Laksnessin "Lilya" hekayəsini o dili bilməyən bir şəxs oxusa, o mətn oxucu üçün anlaşılmaz simvol və işarədən ibarət olacaq. Ancaq ən azından tərcümədən oxuduqda acı və məhzun bir sevgi hekayəti ilə qarşılaşacaq.

Postsruktural ədəbiyyatda dil modern həyatı ifadə edə bilmirsə, yad bir dil qədər anlaşılmazdır. Mübarizin dili nə qədər poetikdirsə, bir o qədər modern imkanlara malikdir. "Ağ buludlar" romanı dilçilik və

semiotika baxımdan təhlillərə imkan verir. Romana semiotik təhlillərlə yanaşanda postsruktural dil və kölgə arxetipləri arasında qurulmuş poetik harmoniya yaranır. "Ağ buludlar" semiotik yozumlarla zəngindir. Mətnin əvvəli Sadomor qəsəbəsində başlayır və orada da bitir. Başlanğıc sona, son başlanğıca çevrilir. Günah və lənətlərin toplandığı məkan Sadomorun səmasında bir topa qara bulud var. Qara buludlar Kral Edipdən əvvəl və müasiri olduğumuz zamandan sonra baş vermiş və verəcək insesləri bir yerə yığan metafordur. Arxetiplər romanın dilini izləyir. Xalis poststruktural funksiya formalaşır. Mətni yazandan sonra müəllifin ölümü bu işi sürətləndirir. Rolan Bartın "Müəllifin ölümü" tezisi bu məqamla üst-üstə düşür. Ənənəvi ədəbiyyatşünaslıq və tənqidə görə mətni və onu dil strukturunu, leksik-semantik çalarları anlamağımız üçün müəllifə müraciət etmək şərtdir. Bart isə bunun əksi olan bir tezisi irəli sürür. Mətn bitdikdən sonra müəllif ölür [2]. Postrukturalizmdə mətnin yaradıcı oxucu tərəfindən mütaliəsi və dilin semiotik təhlili yazıçının ölümünə sübutdur. Mübariz Örən belə bir poetik dil mexanizmi yaradır. Romanın girişində davam edən lənət arxetipi barədə məlumat verilir. "Mayın ortalarında bura son gəlişindən sonra dincliyi əldən getmişdi. Gölün içidəki bulud bir an belə rahat buraxmırdı onu. Gecələr yuxusuna girib hislərini təlatümə gətirirdi. Cilddən-cildə, şəkildən-şəkilə girib ruhunu, vücudunu gəmirirdi. Dağ kimi üstünə yeriyir, qovub-qovub qaranəfəs edirdi. Hər dəfə ölümün bircə addımlığından qayıdırdı, qan-tər içində oyanıb yaxasını gölün dibsiz əsarətindən güclə qoparırdı. Lənətlənmişdi elə bil [19, 119]. Semiotik bir təhlil zamanı ən birinci göl, su hövzəsi diqqət cəlb edir. Göl axar su deyil. Öz hövzəsini tərk edə bilmir. Qara buludlar qəhrəmanı izləyən bədlikdir. Lənətli qara buludlar onun yuxularına da girir. Məlumatlar, açar sözlər yenə də lənət arxetipinin kökünü bilməyimiz üçün kifayət deyil. Daha sonra məkanın dəqiqləşməsi, simvol və şifrələrin yozumuna kömək edir. "Şəhərin iyirmi beş kilometrliyində, Sadomor qəsəbəsinə bitişik meşəlikdə "Müqəddəs göl" deyilən yer var. Qəsəbə tərəfdən getsən, gölün baş tərəfində, lap qəlbidə yarıuçuq daş sütunlar görərsən – bir vaxtlar Buxara, Kazan, Qafqaz tərəfdən gəlmiş müqəddəslərin əzəmətli mülklərinin qalıqlarını. İndi o dikdə Qocanın "Apollon otel"i yerləşir [19, 124].

"Müqəddəs göl" günah və lənəti qəbul etmir. Sadomorda hansı hadisələr baş verib ki, oranı qara buludlar işğal edib. Romanda məkan, zaman və sivilizasiyanın yaratdığı mifik yaddaş öz hərəkət trayektoriyasını cızır. Sodom və Homorra qəbiləsindən başlayan zaman arxetipi, müasir dövrdə Sadomor adlı qəsəbə və oranın əhalisindən ibarət sivilizasiya romanın tikinti materialı olur. Mətnin tikinti materialı dildir və onun semiotik təhliiləri üçün təkcə rəmz, şifrə və simvollar

aparıcı deyil. Süjetlə dil arasında estetik bir harmoniya mütləq şəkildə lazım və zəruridir. Romanın struktur estetikası yaranır. Dil planlı və süjetə bağlı bir formatda semiotik məzmun əldə edir. Arxetiplər zaman və məkanları aşaraq indiki ana daxil olur. Mübariz Örən mifik yaddaşı qapalı çevrədə hərəkət etdirir. Yaradıcı oxucu bu vəziyyəti dərk edir. Həmin qapalı çevrə həm real həyat, həm də bədii, elmi və dini mətnlər arasında kollaj yaradır. Bu palimpsest kollajdır. Köhnə hadisə, rəvayət və bədii əsərlər bir mətndə poststruktural funksiya və kölgə arxetiplərinə tabe edilir. Otelin adının Apollon seçilməsi də təsadüfi deyil. Mifik yaddaş mifik əlaqə, simvol və rəmzlərlə daha təsirli effekt yaradır. Apollon yunan mifologiyasında sənətin, işığın, musiqinin və xəstəliklərin tanrısıdır. Ən əsası da kəhanət tanrısıdır. Gələcəyi görən və bu barədə məlumat verən Apolllon romanda dəqiq bir estetik dekorasiyadır. Çünki Apolllon dünyaya tanrı olaraq gəlsə də, başı insan kimi bəlalar çəkir. İşıq, sənət və musiqinin tanrısı ola bilmək üçün böyük bir yol qət edir. Baş Olimp tanrısı Zevslə ilahə Letonun oğlu Apollon tez bir şəkildə böyüyür və doğulduğu ərazini tərk edir. Əjdaha Pitonu öldürdükdən sonra peşman olur. Günah kompleksi onu rahat buraxmır. Məhz bu hadisədən sonra Apollon müsiqi, işıq, xəstəliklər və kəhanətin tanrısı ünvanına layiq olur. Nəticədə yenə günahdan xilas ola bilmir. Atası Zevsi taxtından salmaq istəyir. Zevs isə ona başa salır ki, “heç vaxt sərhəddi keçmə, həddini bil” [13, 95]. Apollonun xüsusi bir cəhəti var. Biseksualdır. Veyningerin proqnozu diaxrondur və mifik təfəkkürə qədər gedib çıxır. Mifoloji arxetiplər və onun müasir dünyada əks olunma modeli isə “Ağ buludlar” romanında mövcuddur. Tanrılar insan zəkasının məhsuludur. Deməli, yaddaşda, şüur altında yerləşən biseksuallıq dövrdən və sivilizasiyadan asılı olmayaraq ortaya çıxa bilir. Qapalı mifik çevrə “Ağ buludlar” romanında tamamlanır və gələcəyə sənətin enerji və təqdimatını ötürür. Zevsin bədheybət, div oğlu Tityos atasının arvadı Letoya təcavüz edir. Qapalı mifik çevrəyə “Ağ buludlar” romanı bu vaxt daxil olur. Şüuraltında yerləşən cinsi istək və onun günah kompleksinə çevrilməsi qarşılaşır. Cinsi istək və qohumluq əlaqələri arasında parodoks yaranır. “Ağ buludlar” romanında isə inses hadisələri təsadüfi xarakter daşıyır. Edipin düşdüyü çıxılmazlıq sindromuna daha yaxındır.

“Ağ buludlar” romanının adsız qəhrəmanı da Apollon kimi səfərə çıxır. Yol metaforu işə düşür. Bəs qəhrəmanın adı niyə yoxdur? Müəllif ona uyğun bir ad tapa bilməyibmi? Bu bir versiyadır, mümkündür. Ancaq modernist texnologiya ilə yazılan və antiqəhrəman olan bir xarakterin ada ehtiyacı yoxdur. Çünki o, fərdin, xüsusi adın əhəmiyyəti olmayan bir dövrdə yaşayır. Müflisləşən bu “qəhrəman” dostu, mafioz dəstə başçısı Tatara üz tutur. Ondan kömək almaq üçün

Tümenə gedir. Tatarın ölüm xəbəri onu sarsıdır. Tatarın dostu Savçenko ilə görüşür. Savçenko Tatarın kim tərəfindən və necə öldürüldüyü haqda danışır. "Üç güllənin üçünü də təpəsinə boşaltmışdılar. Hikkəsinə bax qancığın, yenə ürəyi soyumayıb, - qan tutmuş gözləri yaşardı bu yerdə , - kişiliyini kəsib ağzına tıxamışdılar... Günah özündəydi axı... Axır vaxtlar lap ağını çıxarmışdı. Zoyanın körpəcə qızyla... görmüşdün onu, heç on beş yaşı da olmazdı, hansı ana dözərdi..." [19, 123]. İnsanın cinsi arzuları və onun qəribə, tragedik sonu bu qısa məlumatda verilir. Zoya ilə sevgi macərası yaşayan Tatar bir müddət sonra başqa zövqlərin arxasına düşür. Onun on beş yaşlı qızına göz dikir. Nəhayətdə Zoyanın kini və analıq hissindən doğan qəzəbi Tatarın kədərli ölümünə səbəb olur. Sodom və Homorra qəbiləsində baş verən cinsi sərbəstlik və sərhəd tanımayan şəhvətdən doğan azğınlıq onlarırn diri-diri yanmağına, məhvinə gətirib çıxarır. Tatarın faciəvi ölümündə zaman və məkan sərhədlərini adlayıb indiki zamana keçən kölgə arxetipi ilə qarşılaşırıq. Sodom və Homorra qəbiləsində bir müddət sonra doyumsuz bir istək yaranır. Artıq qadınlar kişilərin cinsi fantaziyalarına cavab verə bilmirlər. Yeni və fərqli bir macəra axtarılır. "Ağ buludların" semiotik təhlili və poststruktural funksiyası imkan verir ki, mətndə semantik mərkəz təşkil edən kölgə arxetipi tədqiq edilisn.

## 2. Kölgə arxetipi və "Ağ buludlar" romanının qəhrəmanları

Yunqa görə persona, anima, animusa, kölgə və xüsusiyət əsas arxetip növləridir. Persona insanın maskalanmış, cəmiyyətlə bağlı tərəfini ifadə edir. Bu arxetip insanı gizli tərəfini ifadə edir. Ancaq ictimai varlıq olan insan cəmiyyətdə özünü başqa cür aparır. Mahiyyətini, həqiqi kimliyini gizlədir. Anima və animus Veynigerin kişi və qadının biseksuallığı barədə fikirlərinə uyğundur. Kişi və qadın keyfiyyətləri bu arxetipə daxildir. Xüsusiyyət arxetipi insanın bütövlüyünü, ümumi cizgilərini özündə ehtiva edir. Kölgə arxetipi isə fərdin qaranlıq, şəhəvani və mənfi keyfiyyətlərinin daşıyıcısıdır [14, 55-65]. "Ağ buludlar" romanında müasir həyata kölgə kimi daxil olan arxetiplər cinsi arzuların psixoanalizini verirlər. Romanın qəhrəmanları ata və oğulun qaranlıq tərəfləri, başlarına gələn gizli inses, lənətli hadisələr kölgə arxetipnin dəfələrlə təkrarlanmasıdır. Tatar və Zoya xarakterlərinin arasındakı münasibət və onun nəticəsi kölgə arxetipləri vasitəsi ilə əlaqələnmiş estetik və fəlsəfi sistemdir.

Tatar Zoya ilə sevgilidir. Zaman ötdükcə Zoya onun üçün köhnəlir. Yeni və təzə bir qadın arzulayır. Bütün bu məqamlar romanda verilmir. Kadr və təsvir arxası reallıqların psixonalizindən bu nəticə

ortaya çıxır. Mübariz Örən Tatar və Zoya əhvaltında kino sənətinə xas eyham və işarələrdən istifadə edir. Tatarın ölümü haqqında Savçenko danışır. O ölümün nağıl edilməsi adsız qəhrəman və onun atasının həyatını danışmaq üçün estetik açardır. Romanda sistem içərisində sistem, mətn içərisində mətnin fərqli bir strukturu yaradılır. Paralel hekayə və zamanlar bir hekayənin içərisinə yığılır. Danışılan hər bir hekayə, bədii, dini və mifoloji simvollar, şifrələr digərinin proyeksiyası kimi yeni ədəbi yozum və estetik xəritəyə qapı açır. Tatarın əhvalatından daha qatı, mənəvi-psixoloji sarsıntı yaşadan bir hekayəyə keçid baş verir. "Qəsəbədən təzə bir qız gətirmişdi Tatar. Qoyun gözləri kimi hissiyatsız, ehtirassız – ölü gözləri vardı. Heç kimə qaynayıb-qarışmırdı, kənarda dayanıb baş verənlərə sakitcə tamaşa eləyirdi. Qızın qolundan tutub kobudcasına ona sarı dartmışdı Tatar və irişə-irişə: "Tanış ol, - demişdi, - qorxma, öz atası "görüb işini". Çaşqınlıq içində quruyub qalmışdı: necə yəni öz atası?" [19, 131]. Bu dəhşətli hadisə qəhrəmanı sarsıdır. Ancaq Tatar və Qocaya söyməklə təskinlik tapır. Onun əqidəsinə, hətta, xəyalına belə yad olan bir vəziyyətdir. Necə ola bilər ki, bu qədər çirkin bir hadisə baş versin. Ancaq işin daha dəhşətli tərəfi budur ki, o qız onun bacısı, kişi də atasıdır. Bundan xəbərsizdir. Mifoloji bir detalın gerçək yaddaşa çevrildiyi andır. Mif, əfsanə və bədii mətnlərdəki hadisələr müasir, real həyata trasnformasiya olunur. Özü də mif və əfsanələrdən daha qatı və təsirli səhnələrlə təsvir edilir.

"Ağ buludlar" əsəri Orxan Pamukun "Qırmızı saçlı qadın" romanı ilə tale oxşarlığı yaşayır. Pamuk Sofoklun "Kral Edip" və Firdovsinin "Şahnamə" əsərlərindəki ata və oğul qatili arxetiplərinin modern həyatda necə üzə çıxmasını göstərir. Edipin atasını, Rüstəmin oğlu Söhrabı öldürməsi ilə mətnlərarası əlaqə yaranır. Müasir dövrdə yaşayan Cemin oğlu Ənvər də ata qatili olur [20]. Bu mətnlərlə yanaşı, Dostoyevskinin "Karamazov qardaşları" romanında ata qatili olmaq arxetipi yenidən dirilir və fakta çevrilir. Smerdyakovun yaşadığı komplekslərin psixoanalizi verilir [8]. Mübariz Örən isə günah, peşmanlıq və tale üçübucağını arxefakta çevirir. Qəhrəmanın atası gözəl qadınlara qarşı həssas və düşkündür. Atası ailəni tərk edəndən sonra anası onu uşaq evinə verir. Böyüdükdən sonra ata-anasını axtarır. Edipin səfəri kimi onun da səyahəti başlayır. Atasının kimyaçı olduğunu öyrənir. "Elə bilirdi kimyaçıdı atası, sən demə, islah-əmək koloniyasında icbari işləyən məhbuslara "ximik" deyirlər[19, 139]. Qəhrəman müasir dövrdə Edipdən də acı və çıxılmaz bir tale yaşayır. Arxetip və arxefaktlar onu kölgə kimi izləyir. Öz başına gələcək hadisələrdən xəbərsiz atasını araşdırır. Onun haqqında dözülməz gerçəkləri xəbər alır. Əslində Edipin taleyi ata və oğlun yaşadıqları yanında yumşaq təsir bağışlayır. Atasının dostu Petroviçlə tanış olur.

Arxefakt yaşanır və yaranır: "Ximiya"da olanda qəsəbədən bir qızla gəzirdi atan. Gözəl-göyçək də qız idi başı batmış, hardan gəlib ilişmişdi buna, məəttəl qalmalı iş idi. Xeyli vaxt bir yerdə yaşadılar da, əməlli-başlı, ər-arvad kimi: dib-dəhnədən. Axırda da məlum oldu ki... Allah, keç günahımdan, "Allah" Pox yeyən itinəm, Allah. Məlum oldu ki... öz qızıymış gəzdiyi. Olyadan olan – öz əkdiyi! Bunu biləndə başına hava gəldi yazığın.. Öldürmək istəyirdi özünü, amma öldürmədi, dedi, ölüm azdı mənə. İki ay çölə-bayıra çıxmadı, qaranlıqda başını dizinə döyüb ağladı. Bir gün eşitdik ki, hər iki ayağını "frezer"in ağzına verib..." [19, 141].

Edip İokastanın anası olduğunu biləndə bu vəziyyətə dözə bilmir. Ata qatili və anası ilə evlənmiş bir adam özünə ən ağır cəzanı rəva bilir. Ölüm çıxılmaz, ağır vəziyyətdən xilas və qurtuluşdur. Ona görə Edip öz gözlərini oyub ölkəni tərk edir. Qızı ilə cinsi əlaqəyə girən ata isə ayaqlarını kəsir. Var olmağın ən əsas cəhəti olan hərəkəti, yeriməyi özünə qadağan edir. Ziqmund Freyd Edipin hərəkətini psixoloji kompleks, anlaşlmaz cinsi istək və şüuraltı hadisə kimi analiz edir. Edip kompleksi oğlan uşağının atasını qısqanaraq anasına qarşı hiss etdiyi cinsi istəkdir [27]. "Ağ buludlar" romanı Freydin nəzəriyyəsini çürüdür. Daha qatı və ekzistensial bir vəziyyət təqdim edilir. Atanın qızı ilə sirli və xəbərsiz eşq macərasını psixoanalitika belə şərh etmək iqtidarında deyil. Daha dərin bir arxefakt və arxetipin təkrarlanmasıdır. "Ağ buludlar" romanında inses hadisəsi bununla bitmir. İnses, günah və lənətin təkrarlanmasının iki mistik səbəbi var. Birincisi, atanın qərarsız və xassəsiz həyatıdır. İkincisi, Sadomorda "müqəddəs gölün" üzərindəki qara buludların, lənətin çəkilib getməsi üçün mütləq qurban verilməlidir. Lənətli nəsilin sonuncu nümayəndəsi həlak olmalıdır. Romanda qara və ağ buludlar ilk baxışda simvolik, rəmzi xarakter daşıyır. Mətnin poetik sisteminə daxildir. Həm də ilk yaradılışdan, mövcudluqdan başlayraq tanrı və var olmaq arasındakı harmoniya əvəzlənməsidir. Səmavi dinlərə görə xaosdan kosmosu yaradan tanrıdır. Materialist düşüncə bu vəziyyəti fərqli aspektdən ifadə edir. Bir çox fərziyəyə görə böyük partlayışdan sonra mövcudluq ortaya çıxdı. Yəni, xaos mövcudluğa, kosmosa çevrildi. Mifik yaddaş və müasir şüur arasında əlaqənin dinamika mexanizmi xaos və kosmos sitemindəki hərəkətlə bağlıdır. Seyfəddin Rzasoy yaradılış və var olmaq da bir-birini əvəz edən xaso-kosmos ritualının müasir elm, ədəbiyyat və həyatla əlaqəsini analiz edərkən bu qənaətə gəlir. "Xaosdan kosmosun yaranması, sonra kosmosun öz mövcudluq ritmini başa vuraraq yenidən xaosa çevrilməsi, daha sonra həmin xaosdan yeni kosmosun yaranması, başqa sözlə, "xaos-kosmos-kosmos-xaos..." əvəzlənməsi ritmik prosesdir. Elmin müasir inkişaf səviyyəsi mifoloji

materiyaya məxsus bu mövcudluq dinamikasının təkcə mif dünyasının yox, həm də müasir şüurla mənimsənən gerçək dünyamızın öz təbiəti olduğunu ortaya qoymuşdur [22, 72]. "Ağ buludlar" romanında ata və oğul xaosdan kosmosa, kosmosdan xaosa düşürlər. Çünki insesdən xəbərdar olan ata həmin an öz mövcudluğunu itirir. Çəkisizlik, yoxluq qütbünə düşür. Varlığı əzaba çevrilir. O əzab da ona varlığı haqqında nəsə demir. Mütləq bir xaosun içindədir. Sadomorda qara buludların ağ buludlarla əvəz edilməsi də xaos-kosmos əvəzlənməsinin ritminə uyğundur. Qurban vermə ritualı isə romanın finalında həyata keçir. Ancaq bu mifoloji mətnlərdəki kimi baş vermir. Təbii, öz-özünə baş verən real həyat hadisəsidir. Ona görə də bu məqamın analizini sona saxlmaq daha uyğun olar.

Atanın başqa övladlarının olması və nəslin davamı lənət və kölgə arxetiplərini çoxladır. "Bir çuvaş qızıyla da evlənibmiş, - handan-hana sükutu yenə özü pozdu Petroviç, - bir uşağı da varmış onnan, bir-iki il bir yerdə yaşayıblar, sonra nəsə sözləri düz gəlməyib, boşanıblar. Bir ara dedi ki, çıxanda gedəcək ora. Sonra dedi, yox, Kalmikıyada oğlum var, Elistada, ora gedəcəm. Nə bilim e, nə bilim, dınqıldatmadığı kol dibi qalmışdı ki. Özünü də bədbəxt elədi, töküb-törətdiklərini də. Deyirdi ki, o qadının ahı tutdu məni – ananı deyirdi. Deyirdi, ona layiq ola bilmədim. İt kimi peşman idi. Sənin detdoma qoyulmağından da xəbəri vardı. Deyirdi ki, hansı üzlə gedim onu tapım. Ayaqlarım qırılaydı onları qoyub getdiyim yerdə" [19, 142]. Nəsil şəcərəsi davam edir. "Ağ buludlar" romanı Markesin "Yüz ilin tənhalığı" romanı ilə səsləşir. Nəslin davamı mənəvi-psixoloji təhlükəyə məruz qalır və inses lənətinə məruz qalan Buendialar sülaləsinin acı taleyi arxetip və arxefaktların bir-birini izləməsi ilə təsvir edilir. Buendialar xaodan kosmosa, kosmosdan xaosa keçirlər. Nəticədə kosmosa keçə bilmirlər. Xaosun qaranlıq dünyasında qalırlar. Böyük bir nəsil tükənir. Çünki lənətli bir arxetip bu nəsildən əl çəkmir[18]. Əxlaq prinsipləri pozulanda kosmosa aid harmoniya da pozulur. Milan Kundera "Yüz ilin tənhalığı" romanında nəslin yaranması, törəyib çoxalması və süqutunu roman sənətində xüsusi və yeni vəziyyət kimi qeyd edir. "Qarsia Markesin "Yüz ilin tənhalığı" kitabının sayəsində roman artıq fərdiyyətçilik xülyasıyla vidalaşıb, indi diqqət mərkəzində ayrıca bir fərd deyil, fərdlərin bir-birini əvəz etdiyi uzun bir zəncir dayanır. Onlar hamısı özünə görə unikal, təkrarsız olmaqla bərabər əsərin axınında ötəri bir işıq zolağı kimi gözə görünüb yox olurlar, hər bir fərd unudulmalıdır və onların hər biri bu haqda düşünür, heç bir qəhrəman əvvəldən axıra kimi romanın əsas siması olmur. Romandakı qəhrəmanların ulu nənəsi olan qoca Ursula yüz iyirmi yaşında dünyasını dəyişsə də, roman bu hadisədən xeyli gec qurtarır. Burada

diqqəti çəkən başqa bir məqam da var ki, bütün surətlərin adları bir-birinə bənzəyir, məsəlçün: Arkadio Xose, Xose Arkadio, ikinci Xose Arkadio, Aureliyano Buendia, ikinci Aureliyano. Müəllifin bunu etməkdə məqsədi, surətləri bir-birindən fərqləndirəcək cəhətləri dumanlı şəkildə təsvir edib oxucunun onları qarışıq salmasına nail olmaqdır. Onlar bütün cəhətləri ilə avropanın fərdiyyətçilik dövrünə yaddırlar. Bəs, görəsən, onlar hansı dövrə aiddirlər? Amerikanın hindu keçmişinəmi? Ya da ayrı-ayrı fərdlərin insan cinsi içərisində əriyib yoxa çıxacağı gələcəyəmi? Mənim fikrimcə, bu roman, roman sənətinin zirvə nöqtəsi olmaqla bərabər, ənənəvi roman dövrü ilə vidalaşmadır" [25, 193-195] .

"Ağ buludlar" romanı Qarsia Markesin "Yüz ilin tənhalığı" əsəri ilə bir ailənin, nəslin başına gələn fəlakətdə birləşir. Mübariz Örən nisbətən total, Markes qlobal bir dünya yaradır. Ancaq bu lənət və inses mahiyyət etibari ilə fərqlidir. "Yüz ilin tənhalığı" romanında Buendialar nəslinin daxilində baş verən insesdə hər iki tərəfin könüllü istək və razılığı var. "Ağ buludlar" romanında isə lənət arxetipi ata və oğuldan əl çəkmir. Çünki "Ağ buludlar" yeni ədəbi eranın əsəridir. Müasir həyatda isə cinsiyyətin qaydaları mövcuddur. Qaydalar cinsi arzuaları çərçivələyir. Mişel Fukonun "Cinsiyyətin tarixi" tezisində dediyi kimi cinsiyyətin növləri çoxladıqca alınan zövqlər daralır, qısırlaşır. Fukoya görə XIX əsrə qədər homoseksual insanlar olmayıb. Yəni, kişilər kişilərlə cinsi əlaqədə olsa da, homoseksual, hetroseksual və s. kimi terminlərlə ifadə olunmayıblar [11]. Termin və qruplara bölünmələr cinsi istəklərin qarşısına sərhəd çəkir. Poststruktural mətnlər cinsiyyət və psixoanalitikanın öyrənilməsində xüsusi rol oynayır. Rolan Bart, Mişel Fuko və Jak Lakan poststrukturalizmin tədqiqatçıları olmaqla yanaşı, əsas işləri psixoanalitikaya Freydən sonra yenidən qayıtmaq, bu anlayışı dekonstruksiya etməkdir. "Ağ buludlar" romanı cinsi istəklərin qaranlıq tərəfinin bədii tədqiqatı aparılır. Kölgə arxetipinin genetik olaraq nəsildən-nəsilə ötürülməsi dixaron bir strukturda əks olunur.

**Nəticə**

"Ağ buludlar" romanınn bədii gücü psixoanalizlər sisteminin mövcudluğudur. Qəhrəmanın ata-anasının keçmişini araşdırması şüurla bağlı bir hadisədir. Övladın bu addımına iki aspektdən baxmaq lazımdır. 1. Təxtəlşüurda qohumluq dərəcəsi dərin təsir gücünə və diqtə qabiliyyətinə malikdir. 2. Valideynlərə qarşı maraq və onlara olan ünsiyyət ehiyacı instinkt hadisəsidir. Qəhrəman atasının lənətli taleyini öyrəndikdən sonra səfərə çıxır. Zahiri planda o, Qazaxıstana qazanc dalınca gedir. Təzə tanış olduğu qazax Bulatın vədlərinə inanması və

tələsik ona qoşulub getməsi isə şüurun qapandığı məqamdır. Taleyi onu olacaqlar - süprizlər tərəfə çəkir. "Ağ buludlar" romanıda şüuraltı şifrələr müəllifin mürəkkəb bir struktur yaratmaq istəyindən doğmur. Təbii bir istək və hərəkətdən yaranır. Qəhrəmanı Qazaxıstana çəkib aparan atadan oğula keçən kölgə arxetipləridir. Jak Lakan "Ekrits" əsərində şüuraltını tədqiq etməyin yollarını göstərir. Lakana görə psixoanalizdə yaddaş və şüurun qoyduğu senzuralardan keçməyi bacarmaq şərtdir. Əks halda psixoanaliz aparmaq mümkün deyil [15]. "Ağ buludlar" romanında Qazaxıstan səfəri və onun nəticəsinə Lakanın təhlil metodları ilə yanaşmaq zəruridir. Qəhrəmanın beynində gedən proseslər yaddaşın senzurasını işə salır. Eyhamlar və yaddaşın dərinliklərində ilişib qalan psixoloji vəziyyət gizli bir arzunun arxasınca gedir. Cinsi ehtiras və şəhvəti ortaya çıxaracaq şərait və situasiya yaranır. Ancaq bu ehtiras lənətli arxetipi yenidən formalaşdırır. Qazaxıstanın şaxtalı yollarında yük maşınının mühərriki dağılır. Bulat yola yaxın kənddə bir ailəni köməyə gətirir. Qəhrəmanı donmaqdan xilas edirlər. Onun üçün ölmək tezdir. Çünki çox az müddət sonra ölümdən daha ağır və dözülməz bir arxefakt ortaya çıxır. Qurbanvermə ritualı ilə kölgə arxetipi bir-birinə qarışır. Ayrat adlı bir qazax onları evinə qonaq aparır. Yük maşının matoru təmirə verlməli olur. Digər tərəfdən də Bulat Ayratla razılşaır ki, onlar üçün kənddən ət yığsın. Ayratın həyat yoldaşı Sulucan dolğun və fərdi keyfiyyətləri yüksək səviyyədə yaradılan xarakterdir. Sulucanın qreyderçi qardaşı Jora Bulatgilə kömək edir. Maşının ehtiyyat hissələrini almaq üçün uyğun adamı da Jora tapır. O yeznəsinin bu işi həll edə biləcəyini deyir. Sulucan isə Joranın kürəkəninin onlara gəlməyinə razı olmur. Ancaq lazım olan ehtiyyat hissəsini arvadı Aysuludan göndərməsini istəyir. Çünki Sulucan düşünür ki, gözəl və saf Aysulunu yeznələri bədbəxt edib. O, Aysuluya layiq deyil. Yazıçı Aysulu haqqında məlumat verənə qədər bir neçə fərqli səhnə təsvir edir. Qəhrəman Joranın evinə qonaq gedir. Xüsusi hamam ritualı baş verir. Qazaxıstan şaxtasına uyğun bir hamam mərasimi keçirilir. Joranın arvadı qəhrəmandan gözlərini çəkmir. Hətta, Bulat bunun yaxşı bir fürsət olduğunu düşünür. "Şef, fikir verdin, hamamdan çıxanda Joranın arvadı sənə necə baxırdı?" [19, 185]. Qəhrəman isə bunun fərqində deyil. Hər şey Aysulu gələndən sonra aydınlaşır. Mürəkkəb bir aydınlıqdır. Əslində çıxılmazlıq sindromu başlayır. Məlumdur ki, mifologiyada kölgə arxetipi insanın mənəvi cəhətdən naqis və kirli yönlərini ifadə edir. Qəhrəman xəbərsiz bir şəkildə atasının yaşadığı aqibətlə üzləşir. Aysulu ilə cinsi əlaqəyə girəndən sonra həqiqət ortaya çıxır. Joranın arvadının qəhrəmana diqqətlə baxmasının səbəbi aydınlaşır. Atasına oxşayan qəhrəman qadını narahat edir. Sulucana keçmişdə baş verən hər şeyi danışır.

Ancaq gecdir. Nətcədə lənətli bir insesin təkrarına şahid oluruq. Lakanın senzuralı yaddaş tezisi “Ağ buludlar” romanında əks olunur. İnsan beyni və əməli arasında ciddi bir əlaqə var. Beyin və əmələ senzura qoyulmazsa çıxılmaz, mürəkkəb hadisələr baş verə bilər. Ancaq Lakanın senzuralı yaddaş konsepsiyası deqredasiyaya məruz qalır. Axı nə qardaş, nə də bacı qohum, doğma olduqlarını bilmir. Mübariz Örən dərin elmi-nəzəri konsepsiyaları həyatın və ədəbiyyatın mürəkkəb vəziyyətlərinə çevirir. Qurbanvermə qədim dastan və miflərin mündəricəsinə daxildir. “Kitabi-Dədə Qorqud” dastanında “Qazan Xanın evinin yağmalanması” boyunda Uruz ata-anası üçün özünü fəda edir. “Kosmoloji sxemə görə, Uruz öz canını ölmək üçün deyil, dirilmək üçün verir. Bu, ritual sxemi baxımından “can dəyişmə” – “can əvəzində can” – “can qurtarma” deməkdir” [22, 390]. Uruz və atası Qazan nəslin şərəfli davamını təmin edir. “Ağ buludlar”da isə ata və oğul nəslin tükənməsinə səbəb olacaq əməllər törədirlər. Ona görə də Sadomor qəsəbəsinin səmasından çəklilib getməyən qara buludlar qurbanvermə ritualı tələb edir. İnses törədən nəslin sonuncu nümayəndəsi – romanın qəhrəmanı intim əlaqədə olduğu qadının bacısı olduğunu biləndə özünü qurban edir. Artıq yaşamaqdan üz döndərir. Şaxtalı Qazaxıtan gecəsində yük maşınını meşənin qaranlığına sürür. Maşının yanacağı bitir. Hər şey dalana dirənir. Elə özü də bunu istəmirmi? “Nə bir yol vardı, nə bir iz gözlərini yumub səsə səmt gedirdi. İt hürən tərəfə... Bir topa işıq ağarırdı, o işığa sarı gedirdi. O işığa can atırdı. Məni niyə qoydun öləm, baba? – getdikcə Tura çayının sahilində günahlarından arınmış , çöhrələri nur saçan pak, doğma adamlara çevrilirdi o işıq və bir an ona elə gəldi ki, o adamların arasında Qoca da var, uzaqdan əl eləyib onu israrla yanlarına çağırır...” [19, 208]. Mifik yaddaş tarixi, gündəlik yaddaşı üstələyir. “Ağ buludlar” əsəri bu məqamda Yusif Səmədoğlunun “Qətl günü” romanı ilə səsləşir. Baba kahada ölüm həqiqəti ilə üzləşən insanlar arasında heç bir fərq yoxdur. Çünki ölüm heç bir sosial statusundan asılı olmayaraq hər kəsin qarşısına çıxır. “Ağ buludlar” romanında qəhrəmanın ölümü onu mənəvi olaraq təmizləyir. Qurbanvermə ritualı tamamlanır. “Obaşdanın alaqaranlığında axıb pəncərələrindən içəri dolan gur işıq seli yuxularından elədi sadomorluları, maraq içində əyinlərinə hərə bir şey taxıb küçələrə axışdılar. Məbəd həyətinin üstündə gördüklərindən damarlarında qanları dondu; illərdi qara ləkə kimi üstlərindən əskik olmayan bədheybət bulud yerində yox idi! Əvəzində pamparlaq, yümyüngül, bəmbəyaz bir bulud asılmışdı – ağı göz qamaşdıran!” [19, 208]. Romanın sonunda kölgə arxetipi qurbanvermə ritualı ilə yer dəyişir. Sadomor qəsəbəsi lənətli qara buludlardan xilas olur. Mifik yaddaş daxilə, içə çəkilməyin estetikasını yaşayır. Tarixi yaddaşda

mənəvi yenilənmə baş verir. Nəticədə Mübariz Örən "Ağ buldlar" romanında poststruktural funksiya keyfiyyətləri ilə kölgə arxetipini diaxron bir sitem içərisində yaratmağı bacarır. Dil və üslubun poetik imkanları semiotik çalarlar yaradır. Poststruktural funksiyaya daxil olan dekonstruksiya və intertekstuallıq orqanik və təbiidir. Xarakter və hadisələr mənəvi dəyərlər üzərində qurulur. Bu səbəbdən arxetip və arxefaktların kölgə strukturu yaradılır. Keçmiş əhvalat, mif, ədəbi, elmi və dini mətnlər müasir həyata uğurla köçürülür. Bu transformasiya sürət və kopiya şəklində baş vermir. Sənətin klassik və modern keyfiyyətlərini mənimsəmiş bir mətnin estetik təqdimatında gerçəkləşir.

**Ədəbiyyat Siyahısı**


Antmen, A. (2014). *20. Yüzyıl Batı Sanatında Akımlar*. İstanbul: Sel Yayıncılık.

Barthes, R. (2009). *Yazı ve Yorum*. Çeviren: Tahsin Yücel. İstanbul: Metis Yayınları.

Belsey, C. (2002). *Poststructuralism*. Oxford University Press; 1 edition November 28.

Broch, H. (1996). *The Sleepwalkers*. Vintage; 1st Vintage International ed edition (January 30).

Broch, H. (2006). *Edebiyat ve Felsefe*. Çevrimen: Ahmet Sarı. Ankara: Salkımsöğüt Yayınları.

Broch, (2013). *H. Vergilius'un Ölümü*. Çevrimen: Ahmet Cemal. İstanbul: İthaki Yayınları.

Derrida, J. (2010). *Edebiyyat Edimleri*. Çevirmenler: Mudadder Erkan, Ali Utku. İstanbul: Otonom yayıncılık.

Dostoyevski, F. (2014). *Karamazov Qardaşları*. Tərcümə edən: Nadir Qocabəyli. Qanun nəşriyyatı.

Eco, U. (1998). *The Charles Eliot Norton Lectures*. (Book 2016) Harvard University Press; Revised edition. July 21.

Friş, M. (2013). *Homo Faber*. Tərcümə dən: Samir Bulut. Alatoran nəşriyyatı. Bakı.

Foucault, M. (2015). *Cinselliğin Tarihi*. Çevirmen: Hülya Uğur Tanrıöver. İstanbul: Ayrıntı Yayınları.

Flober, Q. (2014). *Madam Bovari*. Tərcümə edən: Çimnaz Vəliyeva. Bakı: Qanun Nəşriyyatı.

Graves, R. (2010). *Yunan Mitleri*. İngilizceden Çeviren: Uğur Akpur. İstanbul: Say Yayınları.

Jung, C. (2015). *Dört Arketip*. Çevirmen: Zehra Aksu Yılmazer. İstanbul: Metis Yayınları.

Lacan, J. (2007). *Ecrits*. W. W. Norton & Company; 1 edition (January 17).

Llosa, V. (2010). *Üveyanne'ye Övgü*. Çevirmen: Celal Üster. İstanbul: Can Yayınları.

Llosa, V. (2014). *Genç Romancıya Mektuplar*. Çevirmen: Emrah İmre. İstanbul: Can yayınları.

Markes, Q. (2011). *Yüz Ilin Tənhalığı*. Tərcünmə edən: Günel Mövlud. Bakı: Qanun nəşriyyatı.

Örən, M. (2017). *Qazanılmış Günün Siestası, Yaxud Balıq Gülüşü*. Bakı: Hədəf Nəşrləri.

Pamuk, O. (2016). *Kırmızı Saçlı Kadın*. İstanbul: Yapı kredi yayınları.

Proust, M. (2013). *Kayıp Zamanın İzinde. Sodom ve Gomorra*. Çevrimen: Roza Hakmen. İstanbul: Yapı Kredi Yayınları.

Rzasoy, S. (2015). *Azərbaycan Dastanlarında Şaman-Qəhrəman Arxetipi*. Bakı: Elm və Təhsil.

Sophokles. (2010). *Oedipus the King*. Translator: David Grene. University of Chicago Press; 1 edition (March 15, 2010).

Tolstoy, L. (2013). *Anna Karenina*. Tərcümə edən: Samir Bulut. Bakı: Qanun nəşriyyatı.

*Yazı Dərgisi*. № 4 (20) Qış - Bakı 2016. 200 səh.

Weininger, O. (2014). *Söz Kalıntıları*. Çevirmen: Abdülbaki Güçlü. Ankara: Pharmakon Kitap.

İnternet materialı

Freyd Z. Dostoyevski və Ata Qatilliyi. Tərcümə edən: Cavanşir Yusifli. http://www.kaspi.az/az/ziqmund-freyd/